*Kərimova Rəxşəndə. "Qarabaği" nisbəli katib və xəttatlar (Azərbaycan əlyazmaları əsasında) //Elmi əsərlər,2022,1(14),yanvar-iyun,s.54-58.*

UOT:09+801.73

**Rəxşəndə Kərimova**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Baki ş. İstiqlaliyyət küç.26*
e-mail: ms.rxsnd@mail.ru

# "QARABAĞİ" NİSBƏLİ KATİB VƏ XƏTTATLAR
*(Azərbaycan əlyazmaları əsasında)*

**Açar sözlər:** *Qarabağ, katib, xəttatlıq, məcmuə, Azərbaycan mətnşünslığı*

Qarabağın ədəbi tarixi çox zəngin və qədimdir. Bu bölgə zaman-zaman bəşər mədəniyyətinə böyük dahilər, istedadlı şəxsiyyətlər bəxş edib. Musiqinin, təsviri sənətin, şeirin, el nəğmələrinin beşiyi olan qədim Qarabağ haqqında müxtəlif qaynaqlarda maraqlı məlumatlar var. XIX əsrin sonu XX əsrin əvvəlində təkcə Şuşada onlarla yazıçı, filosof, mühərrir, tarixçi, şair, rəssam, nəqqaş fəaliyyət göstərib. Onlardan Mir Möhsün Nəvvab Ağamirzəzadə Qarabaği, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Əhməd bəy Cavanşir, Mirzə Adıgözəl bəy, Mirzə Yusif, Mir Mehdi Xəzani, Mirzə Camal, Həsənəli xan Qarabağlı, Mirzə Camal oğlu, Aşıq Pəri, Ağa Bəyim Ağa, Məhəmməd bəy Cavanşir, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Əli Murad kimi ölməz şəxsiyyətlərin adlarını fəxrlə çəkmək olar.

Bu siyahıda Qarabağda yetişən xəttat və katibləri sadalamamaq düzgün olmazdı. **Katib** - müəllif və ya başqa adamların xahişi ilə əsərləri gözəl xətlə yazan, yaxud hökmdarların, varlı ziyalıların sifarişi ilə əsərlərin üzünü köçürən şəxsdir. Şərqdə onlara-xoşnəvis, müstənsix, Qərbdə-kalliqraf deyirlər. Kitab çapı ixtira olunana qədər ədəbi əsərlərin qorunub yaşamasında və yayılmasında katiblərin mühüm xidməti olmuşdur. Katiblərin bir çoxu kitab üçün yazı ləvazimatı (qələm, mürəkkəb, rəng və s.) hazırlamış və əlyazma kitabına cild də çəkmişdir [1].

XV-XVII əsrlərdə Azərbaycan əlyazma nəfis kitabının yaranmasında xəttatlarla yanaşı, miniatürçü rəssamlar, nəqqaş-müzəhhiblər və bədii cild ustaları iştirak edirdi. Müxtəlif ustaların əməyini birləşdirən bu kollektiv işdə, əlyazmanın bitkinliyini və vahid stilini, texniki kamilliyini təmin edən müəyyən ardıcıllıq və qarşılıqlı əlaqə var idi. Aparıcı rol xəttata məxsus idi: o təkcə əlyazmaları köçürmür, müəyyən dərəcədə onu redaktə edir, bəzən dövrünün tələblərindən irəli gələn kiçik dəyişikliklərə də yol verirdi (2.s.10).

Əlyazma kitablarının yaranmasında böyük rolu olan xəttat və katiblər ərəb qrafikası əsasında yaranmış kufi və xətti-sittəyə (altı xətt növü: süls, nəsx, mühəqqəq, reyhani, touqi, rüqə) daxil olan xətt növlərinin əksərində yazmağı bacarmışlar. Onlar gözəl, kalliqrafik xətlə əlyazmalar köçürmüş, eyni zamanda övladlarına, şagirdlərinə də öyrətməklə xəttatlıq və katiblik sənəti ənənəsini davam etdirib yaşadırdılar [3,s.10].

Klassik şairlərdən Həkim Əbülqasım Firdovsi Tusi, Nizami Gəncəvi, Hafiz Şirazi, Sədi Şirazi, İmadəddin Nəsimi, Məhəmməd Füzulinin əsərləri bütün Şərq aləmində oxunmuş, nüsxələri hər zaman katiblər tərəfindən köçürülmüşdür. Azərbaycanlı xəttatlar, miniatürçü rəssamlar vətənimizdən kənarda da qonşu ölkə hökmdarlarının, yaxud da imtiyazlı adamların sifarişinə əsasən Azərbaycan, Şərq klassiklərinin əsərlərini köçürməklə qiymətli və nəfis əlyazma kitabları yaratmışlar. Həmin əlyazmalar Azərbaycandan kənarda yaranıb başqa ölkələrin muzey və kitabxanalarında saxlanılsa da, mütəxəssislər tərəfindən tamamilə haqlı olaraq, Azərbaycan əlyazmaları, Azərbaycan xalqına məxsus yazılı sənət abidələri hesab olunur.[ 3,s.12]

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda çoxlu sayda Qarabağ bölgəsində yazılmiş və Qarabaği nisbəsi ilə yazıb-yaratmış katib və xəttatların qiymətli əlyazmaları qorunmaqdadır.

**1.Əli bin Nağdəli Qarabaği**

Husaməddin Həsən əl-Katinin məntiq elmindən bəhs edən "Şərh İsağuci" ərəbdilli əlyazma nüsxəsi B-4554 şifr altında saxlanılır və mətni məcmuənin 89b-104b vərəqlərini əhatə edir. Şərh katib tərəfindən h.1240/m.1824-25-ci ildə kiçik,qalın, çətin oxunan nəstəliq elementli nəsx xətti ilə açıq mavi rəngli Şərq istehsallı kağıza köçürülüb. Məcmuənin həcmi 105 vərəqdir [4].

**2.İbrahim bin Qadi Qarabaği**

Şəhabəddin Əbu Hamid Məhəmməd bin Mahmud bin Əli bin Əbu Talibin ilahiyyatdan bəhs edən "Risalə fi əl-əhkəm əş-şəriyyə" ərəbdilli əlyazma nüsxəsi B-2772 şifr altında saxlanılır. Əsər katib tərəfindən h.1222/m.1807/1808-ci ildə qara mürəkkəblə, şikəstə xətti ilə Avropa istehsalı olan göyümtül boyadılmış nazik, su nişanlı kağıza köçürülüb. Əlyazmanın həcmi 10 vərəqdən ibarətdir [5,v.10].

**3.Məhəmməd Əli bin İsmayıl əl-Qarabaği**

Kazım bin Qasım əl-Musəvi əl-Həsəni ər-Rəştinin ilahiyyatdan bəhs edən "Bəyan məqamət əz-zahir val batin vat-təvıl fil-Quran" ərəbdilli əlyazma nüsxəsi B-463 şifr altında saxlanılır və məcmuənin 74b-84a vərəqlərini əhatə edir. Əsər katib tərəfindən h.1262/m.1845-ci ildə qara mürəkkəblə narın nəsx xətti ilə boz rəngli nazik, Şərq istehsalı olan kağıza köçürülüb. Əlyazmanın həcmi 203 vərəqdən ibarətdir [6].

**4.Məhəmməd Qulu bin Hüseyn əl-Qarabaği**

Bəhaəddin Məhəmməd bin Hüseyn əl-Amili əl-Bəhainin "Təşrih əl-əflək" adlı ərəbdilli əlyazma nüsxəsi B-5408 şifr altında saxlanılır və məcmuənin 144b-148a vərəqlərini əhatə edir. Əsər h.1207/m.1792-ci ildə nəsx xətt ilə Avropa istehsalı olan krem rəngli kağıza yazılıb. Məcmuə 148 vərəqdən ibarətdir [7,s.460; 8].

**5.Haqverdi ibn Məşhədi Ocaqverdi Qarabaği**

Qüdsi Abbasqulu ağa Bakıxanovun ilahiyyatdan bəhs edən "Riyazil-Qüds" türkdilli əlyazma nüsxəsi D-140 şifr altında saxlanılır. Əlyazma katib tərəfindən h.1258/m.1842-ci ildə nəstəliq-nəsx xətti ilə Avropa istehsalı olan sarımtıl, su nişanəli, filiqranlı kağıza yazılıb. Qırmızı mürəkkəblə əhatələnmiş çərçivədə yazılıb. 94 vərəqdən ibarət olan əsər Şuşa şəhərində köçürülüb [9].

**6.Məhəmməd Həsən ibn Mirzə Məhəmməd Qasım Qarabaği**

Hüseyn Həzarfənnin "Tənqihi-təvarixi-mülük" türkdilli əlyazması D-208 şifr altinda saxlanılır. Əsər katib tərəfindən h.1262/m.1845-ci ildə nəstəliq xəttilə Avropa istehsalı olan sarımtıl yarıahərli, su nişanəli kağıza köçürülmüşdür. Əsər 182 vərəqdən ibarətdir [10,182].

**7.Həsənəli xan Qarabaği**

Şeirlər toplusundan ibarət olan "Cüng" (türkcə, farsca**)** türkdilli əlyazma nüsxəsi B-1486 şifr altinda saxlanılır. Cüngdə 4 şairin şeiri var. Əsər nəstəliq xəttilə Rusiya istehsalı olan kağıza köçürülüb. Bəzi vərəqlərdə "Фабрика Платунова №5" möhürü vurulub. Əlyazma h.1287-1308/m.1870-1890-cı illərdə Bərgüşad kəndində yazılib. Həcmi 24 vərəqdən ibarətdir [11,24].

**8.Həsənəli Yüzbaşı oğlu Qarabaği**

Əlişir Nəvainin "Divan" türkdilli əlyazma nüsxəsi B-967 şifr altında saxlanılır. Əlyazma qara və bənövşəyi mürəkkəblə yazılıb. Əsər h.1361/m.1942-ci ildə Buquruslan şəhərində köçürülüb. Həcmi 2 ədəd dəftərdən (I dəftər 162+162 vərəq) ibarətdir [12].

**9.Mirzə Xəlil Yüzbaşıyev Qarabaği**

"Kitabi-Koroğlu" türkdilli əlyazma nüsxəsi B-206 şifr altında saxlanılır. Əlyazma nəstəliq-
şikəstə xətti ilə bənövşəyi mürəkkəblə adi, ağ, sadə kağıza köçürülüb. Əsər h.1291 (1874-75)-ci illərdə köçürülüb. Əlyazma 260 vərəqdən ibarətdir [13,260].

**10.Bint Məhəmməd Rəhim Qarabaği**

Füzuli Məhəmməd ibn Süleyman və Məcnun Bağdadinin "Leyli və Məcnun" türkdilli əlyazma nüsxəsi B-2317 şifr altında saxlanılir. Əsər qara tuşla nəstəliq xətti ilə 1816-ci ilə aid Rusiya istehsallı filiqranlı kağıza köçürülüb. Əlyazma113 vərəqdən ibarətdir [14,113].

**11. Nəvvab Mir Möhsün Qarabaği**

Şeirlər toplusundan ibarət olan "Cüng" (türkcə, azərbaycanca, farsca) türkdilli əlyazma nüsxəsi B-1116 şifr altında saxlanılır. Əlyazma Avropa istehsllı filiqranlı kağıza nəstəliq xəttilə yazılıb. Köçürülmə tarixi:h.1314/m. 1896 cı il. Əlyazma 142 vərəqdən ibarətdir [15.142].

**13. Əhməd bin Əli Əşrəf Qarabaği**

Məhəmməd bin Əbdüssəbur Hayinin (Təbrizi) "Durr məknun Durr Nasiri" farsdilli əlyazma nüsxəsi B-2512 sifr altında saxlanılır. Əsər məşhur vəzir Hac Mirzə Akasinin göstərişi ilə (1265/1848 ölüm tarixi), Məhəmməd şaha (1250/1834-1265/1848) həsr olunmuşdur. Əsər kalliqrafiq nəsx xətti ilə Rusiya istehsalı olan qalın, krem rəngli kağıza köçürülmüşdür. Əlyazma h.1270/m.1853-cü ildə yazılıb. Əlyazma 124 vərəqdən ibarətdir [16,124].

**14.Heydər bin Xeyr əl-hac Hacı Əli Məhəmməd Qarabaği**

Təbabət elmindən bəhs edən "Risaleyi tibb" farsdilli əlyazma nüsxəsi C-14 şifrə altında saxlanılır. Mətn məcmuənin 340b-401a vərəqlərini əhatə edir. Əsər şikəstə elementli nəstəliq xətti ilə Şərq istehsalı olan nazik, krem rəngli su nişanlı kağız üzərində qara mürəkkəblə yazılıb. Köçürülmə tarixi:h.1302/m.1886-cı ildir. Əlyazma 447 vərəqdən ibarətdir [17,447].

**15.Məhəmməd Təbrizi əl-əsl, Qarabaği əl-məskən**

Mirzə Məhəmməd Mehdi xan Astarabadi bin Məhəmməd Nasirin Nadir şahın tarixindən bəhs edən "Tarixe-cahanqoşayi-Naderi" farsdilli əlyazması C-565 şifr altında saxlanılır. Əsər liqaturalı nəstəliq xətti ilə, Qurandan olan seçmələr isə kalliqrafiq nəsx xətti ilə Avropa istehsallı krem rəngli, qalın kağıza yazılıb. Köçürülmə tarixi:h.1232 m.1817-ci il. Əlyazma 147 vərəqdən ibarətdir [18].

**16.İbadallah Ağayi Qarabaği ibn Saleh Qarabaği**

Mirzə Məhəmməd Mehdi xan bin Məhəmməd Nəsir Astrabadinin məktub məcmuəsindən ibarət "İnşa" farsdilli əlyazma nüsxəsi B-272 şifr altında saxlanılır.Əsər məcmuənin 1b-46a vərəqlərini əhatə edir. Əlyazma şikəstə elementli nəstəliq xətti ilə Avropa istehsallı nazik, krem rəngli, su nişanlı nazik kağıza yazılıb. Qurandan olan seçmələr nəsx xətti ilə yazılıb. Köçürülmə tarixi: h.1248/m.1832-ci il. Əlyazma 79 vərəqdən ibarətdir [19].

**17. Məhəmməd Mehdi bin Məhəmməd Haşim Qarabaği**

Hacı Süleyman bin Salman İrəvaninin təbabətdən bəhs edən "Kitabe-lüğəte-tibb" farsdilli əlyazması M-174 şifr altında saxlanılır.Əsər qara mürəkkəblə nəstəliq elementli nəsx xətti ilə Rusiya istehsallı krem rəngli vərəqlərə köçürülüb.Əlyazma məcmuənin 137a-209a vərəqlərini əhatə edir. Köçürülmə tarixi: h.1278/m.1861-ci il. Əlyazma 210 vərəqdən ibarətdir [20].

**18.Qarabağlı Əhməd**

Nurəddin Əbdürrəhman bin Əhməd Caminin qəsidələrdən ibarət olan "Cəlaür-ruh" əlyazma nüsxəsi A-433 şifr altında saxlanlır və məcmuənin 43b-48a vərəqlərini əhatə edir.

Əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə Şərq istehsallı sarımtıl, nazik kağıza köçürülub.Köçürülmə tarixi: h.1125/m.1713-ci il. Əlyazma 51 vərəqdən ibarətdir [21].

Bir məqalədə bu istedadlı, dəyərli katib və xəttatların çoxcəhətli yaradıcılığı haqqında geniş məlumat verməк imkan xaricindədir. Gələcəkdə onların həyat və yaradıcılığının, elmi irsinin ətraflı, dərindən tədqiqi Qarabağın dahi və məşhur şəxsiyyətlərinin tanınmasında mühim rol oynaya bilər.

**Ədəbiyyat:**

1. https://az.wikipedia.org/wiki/Katib
2. AMEA.Əlyazmalar xəzinəsində.VIII cild. Bakı: Elm,1987, 135 s.
3. Məmmədbağıroğlu Əli. Azərbaycan əlyazma kitabı. XVII əsr / AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2018, 204 s.
4. **B-4554.** Husaməddin Həsən əl-Kati "Şərh İsağuci". H.1240/m.1824-25-ci il /AMEA Əlyazmalar İnstitutu. 105 v.
5. **B-2772**. AMEA Əlyazmalar İnstitutu. Şəhabəddin Əbu Hamid Məhəmməd bin Mahmud bin Əli bin Əbu Talib "Risalə fi əl-əhkəm əş-şəriyyə". H.1222/ m.1807 /1808-ci il, 10v.
6. **B-463.** Kazım bin Qasım əl-Musəvi əl-Həsəni Rəşti. "Bəyan məqamət əz-zahir val batin ər-vat-təvıl fil-Quran" / AMEA Əlyazmalar İnstitutu. 203v.
7. Каталог арабских рукописей института рукописей им.К.С.Кекелидзе. – 2002. - Вып.2. – № 784. - С.586.
8. **B-5408.** Bəhaəddin Məhəmməd bin Hüseyn əl-Amili əl-Bəhai "Təşrih əl-əflək". H.1207/m.1792-ci il /AMEA Əlyazmalar İnstitutu. 148v.
9. **D-140.** Qüdsi Abbasqulu ağa Bakıxanov"Riyazil-Qüds". Tarixi : H.1258/m.1842 / AMEA Əlyazmalar İnstitutu. 94 v.
10. **D-208.** Hüseyn Həzarfən "Tənqihi-təvarixi-mülük". H.1262/m.1845-ci il / AMEA Əlyazmalar İnstitutu. 182 v.
11. **B-1486.** AMEA Əlyazmalar İnstitutu. "Cüng". H.1287-1308/m.1870-1890-cı illər. 24v.
12. **B-967**. Əlişir Nəvai "Divan".H.1361/m.1942-ci. 2 ədəd dəftər / AMEA Əlyazmalar İnstitutu. (162+162v.).
13. **B-206.** "Kitabi-Koroğlu".H.1291/m.1874-75-ci il /AMEA Əlyazmalar İnstitutu. 260 v.
14. **B-2317.** Füzuli Məhəmməd ibn Süleyman və Məcnun Bağdadi "Leyli və Məcnun" / AMEA Əlyazmalar İnstitutu. 113 v.
15. **B-1116**. "Cüng" /AMEA Əlyazmalar İnstitutu. 142v.
16. **B-2512.** Məhəmməd bin Əbdüssəbur Hayi (Təbrizi) "Durr məknun Durr Nasiri". H.1270m.1853-cü il / AMEA Əlyazmalar İnstitutu. 124v.
17. **C-14.** "Risaleyi tibb".H.1302/ m.1884-cü il / AMEA Əlyazmalar İnstitutu. 447 v.
18. **C-565**. Mirzə Məhəmməd Mehdi xan Astarabadi bin Məhəmməd Nasiri "Tarixi-cahanqoşayi-Naderi". H.1232 m.1817-ci il / AMEA Əlyazmalar İnstitutu.147 v.
19. **B-272.** Mirzə Məhəmməd Mehdi xan bin Məhəmməd Nəsir Astrabadi. "İnşa". H.1248/m.1832-ci il / AMEA Əlyazmalar İnstitutu. 79 v.
20. **M-174.** Hacı Süleyman bin Salman İrəvani "Kitabe- lüğəte-tibb". H.1278/m.1861-ci il / AMEA Əlyazmalar İnstitutu. 210 v.
21. **A-433**. Nurəddin Əbdürrəhman bin Əhməd Cami. "Cəlaür-ruh". H.1125/m.1713-ci il /AMEA Əlyazmalar İnstitutu. 51v.

***Керимова Рахшанда***

**ПЕРЕПИСЧИКИ И КАЛЛИГРАФЫ С ПСЕВДОНИМОМ "КАРАБАГИ"**

**Резюме**

Карабахский регион является территорией с более древней историей в отличие от других областей не только Азербайджана, но и многих стран мира. Именно Карабахский регион богат своей историей, материально-культурными памятниками, богатой литературой, искусством и музыкальной культурой. Видные представители этой богатой культуры - каллиграфы и переписчики внесли большой вклад в создание рукописных книг.

**Ключевые слова:** *Карабах, переписчик, каллиграф, сборник, азербайджанское текстоведение.*

***Karimova Rakhshanda***

**SCRIBES AND CALLIGRAPHERS UNDER THE PSEUDONYM “KARABAKHI”**

**Summary**

The Karabakh region is the land of ancient history, in compare with not only the territory of rest Azerbaijan, but also the territory of many world countries. It is the Karabakh region that is famous with its history architectural and cultural monuments, literature, art and music. The prominent representatives of this culture -calligraphers and scribes made a great contribution in writing the manuscripts

**Key words:** *Karabakh,copyist, scribe,calligraphy, collection, Azerbaijani textual studies*

*Redaksiyaya daxil olma tarixi: 25.05.2022*
*Çapa qəbul olunma tarixi: 03.06.2022*

*İlahiyyət üzrə fəlsəfə doktoru Nailə Süleymanova tərəfindən çapa tövsiyə olunmuşdur*